Peşə təhsili və insan kapitalı. Cild 4, №4, 2021 s.12-15

# DAVRANIŞ VƏ MƏİŞƏT ESTETİKASI



**Vidadi Xəlilov,**
*Azərbaycan Respublikası Təhsil İnstitutunun böyük elmi məsləhətçisi,*
*pedaqogika üzrə elmlər doktoru, professor*
*e-mail: konulmikayilova@rambler.ru*

Müxtəlif nəsillərdən olan insanların mənəvi zənginliyinin formalaşmasında davranış estetikasının təsir qüvvəsi çox böyükdür. **Davranış estetikası** şəxsiyyətin və cəmiyyətin əsas göstəricilərindən sayılır. İnsanların həyat tərzinin yüksəlməsində, mənalı yaşayıb-yaratmasında davranış estetikasının çox böyük rolu vardır, desək, səhv etmərik. Çünki davranış estetikası, eyni zamanda etik-estetik mədəniyyətlə sıx bağlıdır. Ona görə də həyat və məişətin müxtəlif anlarında davranış estetikasının, ünsiyyət mədəniyyətinin başlıca tələblərinə riayət etmək lazım gəlir. Belə bir mövqe əxlaqi kamilliyə zəmin yaradır. **Əxlaq** isə ictimai şüur formalarından biri kimi, insanların həyat və məişətində çox böyük əhəmiyyət kəsb edir. Ailədə, məktəbdə, istehsal proseslərinin davam etdiyi yerlərdə, ictimai həyatın bütün sahələrində mədəni davranış qaydalarının məcmusundan ibarət olan əxlaq etik-estetik mahiyyəti ilə diqqəti cəlb edir. Bu da təsadüfi deyildir. Çünki etika əxlaqın mahiyyəti, məzmunu, formalaşması yolları haqqında elm olmaqla, qədim zamanlardan bugünədək insanların davranış qaydalarını nizamlayır, onları mənəvi zənginliyə istiqamətləndirir. Bir sözlə, davranış estetikası etika və əxlaqla sıx bağlıdır. Ona görə də davranış estetikasından bəhs edərkən etik-əxlaqi kateqoriyalar üzərində dayanmaq lazım gəlir.

İnsanların həyatında bir-biri ilə davranışı prosesi zamanı müsbət və mənfi əxlaqi sifətlər nəzərə çarpır. Müsbət əxlaqi sifətlər ***fəzilət***, mənfi əxlaqi sifətlər isə ***qəbahət*** adlanır. Xalqımız müsbət əxlaqi sifətləri həmişə yüksək qiymətləndirmişdir. Azərbaycan ədəbi folklorunun müxtəlif janrlarında, o cümlədən nağıllarda müsbət əxlaqi sifətlərin tərənnümünə geniş yer verilmişdir. Bununla yanaşı, bəd əməlləri ilə tanınan qüvvələr də diqqət mərkəzindən kənarda qalmamışdır. Xeyir və şər, xeyirxahlıq və nanəciblik, yaxşılıq və yamanlıq, səxavətlilik və xəsislik, məhəbbət və nifrət insanlara xas olan kefiyyətlər kimi nəzərə çarpmışdır. Vicdan, borc, ədalət, şərəf, ləyaqət kimi yüksək insani keyfiyyətlərə yiyələnmək uğrunda çalışan insanlar həyatın hər anında nümunə göstərilmişlər. Bu da məlumdur ki, insanın qədir-qiyməti onun ədəbi, hamı tərəfindən qəbul edilmiş mədəni davranış qaydalarına riayət etməsi, böyük hörmət-nüfuz qazanması ilə ölçülür. Məhz elə ona görə də müqəddəs kitabımız "Qurani Kərim"in ayrı-ayrı surələri də insanları mehriban dolanmağa, mehriban yaşamağa səsləyir. Ədalətin, halallığın, xeyirxahlığın hər yerdə, bütün insanlar arasında hökm sürməsinin vacibliyi göstərilir. Allahın bəndələri bir-birinin halına yanmalı, gözəl davranışları ilə tanınmalıdırlar. Əxlaqi şüur, mədəni davranış insanın yaraşığı, zinətidir. Buna görə də, folklor nümunələrində əxlaq, davranış qaydaları haqqında olan sözlər bu gün də öz dəyərini saxlamaqdadır. Bu əvəzsiz söz inciləri hər kəsi böyüklərə, qocalara, ata-analara, baba-nənələrə, qadınlara, qızlara, özündən kiçiklərə hörmət et-

məyə, elmə, təhsilə fikir verməyə səsləyir.

*"Uşağı yemək böyütməz, sevinc böyüdər", "Bugünkü uşaq sabahkı qoçaq", "Ağıl yaşda deyil, başdadır", "Alim olmaq asandı, adam olmaq çətin", "Böyük olan yerdə kiçik danışmaz", "Böyüyünü tanımayanı heç kim tanımaz", "Ən böyük dövlət dostluqdur", "Dostluğu birdən pozma, bəlkə bir də dost oldun", "Qonaq bərəkət gətirər", "Qonaq evin gülüdür", "Xeyir dilə qonşuna, xeyir gəlsin başına", "Əzizin evinə əzilə-əzilə get"* və digər **atalar sözlərində** ulularımız insanlarla xoş ünsiyyətdə olmağın, əlbir-dilbir olmağın vacibliyini dönə-dönə qeyd etmişlər.

İslam dininin banisi Həzrəti Məhəmməd Peyğəmbərin müqəddəs kəlamları insanları birliyə, mehribanlığa qovuşdurmaqda çox böyük təsir qüvvəsinə malik olmuşdur. Həzrəti Məhəmməd Peyğəmbərin din, iman, mömin-müslüm, iman əhli, ədəb qaydaları və tərbiyə, əməyə münasibət, torpağa məhəbbət, təmizkarlıq və sağlamlığın qorunması, elm və savadlı adamlar haqqında dediyi kəlamlar çox dəyərli və təsirlidir. Peyğəmbərimizin insanlara müraciətlə dediyi: *"Özün üçün nəyi arzu edirsənsə, nəyi istəyirsənsə, başqaları üçün də onu arzu et, onu istə", "İnsanların xeyirlisi, insanlar üçün ən faydalı olanlardır", "Qonağa hörmət edəndə qeyri-səmimiliyə yol verməyi qadağan edirəm"* və s. kimi müqəddəs kəlamları mənalı yaşamağımız üçün həmişə faydalıdır.

İslam dininin ən böyük nüfuzlu şəxsiyyətlərindən, imamlarından olan Həzrəti Əlinin insanları insaniyyətə səsləyən kəlamları da çox təsirlidir: *"Hər bir insanın qiyməti onun etdiyi yaxşılıqlarla ölçülür", "Dili şirin olan kimsənin qardaşları çox olar", "Dilinə nəyi öyrətsən, sənə o şeyi qaytarar"* və digər kəlamları əsrlərdən bəri insanların xoş rəftarına düzgün istiqamət verir.

Həzrəti Məhəmməd Peyğəmbərin və Həzrəti Əlinin müqəddəs kəlamlarını eşidən, dilində təkrarlayan, onların təsiri ilə düşünən, hərəkətlərini, etdikləri əməlləri göz önünə gətirən hər kəs yüksək əxlaqi saflığa, mədəni davranışa, davranış estetikasına yiyələnməyə istiqamətlənir.

**Mədəni davranış** insanların ən dəyərli qabiliyyətidir. Elə buna görə də xalqımız yüksək əxlaqi keyfiyyətləri – sadəliyi, təvazökarlığı, xeyirxahlığı, halallığı, qayğıkeşliyi, həssaslığı həmişə yüksək qiymətləndirmişdir. Unutmaq olmaz ki, digər bacarıq və vərdişlər kimi, mədəni davranış da məktəbəqədər dövrdən, məktəb illərindən formalaşmağa başlayır. Başqa sahələrdə olduğu kimi, mədəni adətlər və mədəni davranış qabiliyyətləri öz-özünə yaranmır. Bunları öyrənmək və əməli fəaliyyətə tətbiq etmək, davranış normalarına çevirmək lazımdır. Buna görə də davranış estetikası ilə bağlı olan bir sıra mədəni davranış qaydalarına diqqət yetirmək yerinə düşər.

Hər şeydən əvvəl, qeyd edək ki, mədəni insanlar bir-biri ilə görüşəndə səmimi olmağı, salamlaşmağı, hal-əhval tutmağı bacarmalıdırlar. Salamlaşarkən birinci olaraq kiçik böyüyə, şagird, tələbə isə müəllimə salam verməlidir. Yaşlı adamla, həm də səndən böyük olanlarla salamlaşarkən, yaxud onlardan ayrılarkən birinci olaraq əl uzatmamaq, yalnız baş əyməklə kifayətlənmək lazımdır. Ümumiyyətlə, tibbi mülahizələrə, qaydalara görə əl verməklə görüşmək, öpüşmək də məsləhət deyil. Dünyanın bir çox ölkələrində də buna yaxşı baxmırlar.

**Dinləmək** – başqasını, müsahibini dinləmək bacarığı da mədəni davranışa aiddir. Müsahibinin səninlə danışanın, xüsusilə yaşlı adamın sözünü kəsməmək, axıradək dinləmək vərdişinə yiyələnmək lazımdır.

Böyüklərlə bir yerdə olarkən son dərəcə həssas, diqqətli və nəzakətli olmaq lazımdır. Özünüzdən böyüklər sizdən məsləhət almaq istəmirlərsə, onlara məsləhət verməyə tələsməyin. Əgər müəyyən bir məsələ haqqında nəsə demək istəyirsinizsə, əvvəlcə icazə alın, sonra necə deyərlər, *"yüz ölçün, bir biçin"*.

Mədəni insan hamıya yaxşılıq etməyə çalışmalıdır. Yüksək səviyyəli mədəni insanlar, hətta onlara edilən pisliklərə qarşı yaxşılıq edirlər. Atalar demişkən: *"Yaxşılığa yaxşılıq hər kişinin işidir, yamanlığa yaxşılıq nər kişinin işidir"*.

Mədəni insan dediyi hər sözün, etdiyi zarafatın həddini bilməlidir. Ata-babalarımız əbəs yerə deməmişlər ki, "zarafat dostluğun qayçısıdır". Mədəni insan davranışında olduqca mülayimlik göstərməli, heç kəsin qəlbinə dəyməməli, könlünü sındırmamalıdır. Əgər kiminsə xətrinə dəymisinizsə, tez də səhvinizi düzəldin, səhvinizi etiraf edin, üzr istəyin. Mədəni insan

heç kimlə dalaşmamalıdır. Əgər bu və ya digər səbəbdən münasibət pozulubsa, elə davranmaq lazımdır ki, barışmağa əl yeri qalsın. İctimai yerlərdə davranış qaydalarını pozanlarla, kobud hərəkət edənlərlə barışmamaq, güzəştə getməmək lazımdır.

Əxlaqi söhbətlər zamanı şagirdlərin, tələbələrin nəzərinə çatdırmaq lazımdır ki, müəyyən bir şey üçün kimsədən təkrar-təkrar xahiş etmək, təngə gətirmək düzgün deyil. Əgər bir nəfər sizin xahişinizi yerinə yetirmək istəmirsə, çox da üz vurmayın. Bir-iki dəfə xahişlə kifayətlənsəniz, yaxşıdır. Hər hansı bir yerə, bir adamın yanına gedərkən qabaqcadan onunla görüş vaxtını razılaşın. Evə, yaxud iş yerinə gedərkən qapını döymək, içəri keçməzdən əvvəl icazə almaq daha məqsədəmüvafiqdir. Davranış estetikası, ünsiyyət mədəniyyəti ilə bağlı olan həmin cəhətlər, eyni zamanda şəxsiyyətin etik-estetik mədəniyyətini göstərir. İnsanın qədir-qiyməti onun ədəbi, gözəl xasiyyəti, mədəni davranışının səviyyəsi ilə ölçülür. Dahi Nizaminin: *Xoş ətirlər saçmaq istəyən adam, gültək xoşxasiyyət olmalı müdam,* – sözləri necə də yerinə düşür. Hər yerdə, həyatın bütün sahələrində insanları əxlaqi gözəlliyi, əxlaqi fəzilətləri nümayiş etdirməyə ruhlandırır.

Davranış estetikasından bəhs edərkən **insanın zahiri görünüşü** də diqqət mərkəzində olan vacib məsələlərdəndir. Əlbəttə, yaşından, peşəsindən asılı olmayaraq, hər kəs istəyir ki, gözəl görünüşü ilə diqqəti cəlb etsin. İnsanın səliqəli geyimi, təmizkarlığı, boyuna, bədən quruluşuna müvafiq saç saxlaması bu baxımdan daha çox diqqət yetirilməsi vacib olan məsələlərdəndir. Maraqlısı odur ki, insanın zahiri görünüşünün cazibədarlığından danışarkən çox zaman dəblə geyinmək məsələsini ön plana çəkirlər. Halbuki məsələyə bu cür yanaşmaq birtərəfli mövqeyi əks etdirir. Gəlin bir anlığa təsəvvür edək: Qarşımızda ən müasir moda ilə geyinmiş bir insan dayanıb. Əgər onun görkəmində səliqə-sahman yoxdursa, geydiyi paltara ütü çəkilməyibsə, paltara düşən ləkə vaxtında təmizlənməyibsə, çirklidirsə bu cür dəblə geyinməyin gərəkliliyindən danışmağa dəyməz. Unutmaq olmaz ki, hər hansı dəb, eyni zamanda dövrün, insanların həyat tərzinin tələbi ilə meydana çıxan və dəyişən prosesdir.

Hər hansı dəbli geyim, eyni zamanda qısamüddətli və ya müəyyən dövr keçdikdən sonra yenidən təkrarlanaraq "uzunömürlü" ola bilər. Burada onu da qeyd edək ki, dəbə aludə olmaq və onu mədəni davranışın əsas əlamətlərindən biri kimi qəbul etmək bir o qədər də məqbul sayıla bilməz. Əsas məsələ insanın ictimai mühitdə özünü səliqə-sahmanla aparması ilə bağlıdır.

Geyim mədəniyyəti ilə diqqəti cəlb edən hər kəs ünsiyyət üçün çox zəruri olan danışıq tərzi, nitq mədəniyyəti ilə tanına bilərmi? Gəlin etiraf edək ki, yer üzünün yaraşığı, memarı sayılan insan, sözü ilə tanınır. İnsanın böyüklüyü, şüurluluğu, əxlaqi səviyyəsi, mədəniyyəti onun dediyi sözlə ölçülür, qiymətləndirilir. Böyüklərin tez-tez dediyi: *"Sözü bişir, sonra ağzından çıxar", "Sözünə qiymət ver", "Hər nə gəldi danışma"* sözlərini kim eşitməmişdir? Dahi şairimiz Nizaminin sözün qədir-qiymətini bildirən aşağıdakı misralarına diqqət edək:

***Sordu:*** *köhnə qızılmı, təzə sözmü yaxşıdır?* ***Söz sərrafı söylədi:*** *söz dünyanın naxışıdır, sözün qanadları var quş kimi incə-incə, dünyada söz olmasa nəyə gərək düşüncə?...*

Atalar sözlərinə çevrilən "Sözün də su kimi lətafəti var, hər sözü az demək daha xoş olar" misraları da Nizamiyə məxsusdur.

Fikir verirsinizmi, hələ neçə əsr bundan əvvəl dahi sənətkarımız sözə, sözün məzmununa, təsirinə necə böyük əhəmiyyət vermiş, onu insanın mənəvi aləminin əsas meyarı saymışdır. Təsadüfi deyildir ki, gözəl, məzmunlu danışıq, öz sözü ilə ətrafdakıları təsirləndirmək məsələsi həmişə mütərəqqi insanların diqqət mərkəzində olmuşdur. Fikri aydın ifadə etmək üçün sərrast söz seçmək, onları yerli-yerində işlətmək məsələsi də həmişə yüksək qiymətləndirilmişdir. Buna görə də insanın qarşısındakına ünvanlanan hər sözü mənalı, məzmunlu olmalıdır. Fikrimizcə, hər bir insan, istər məktəbli, tələbə, istərsə də yaşlı nəslin nümayəndəsi müəyyən bir yerdə danışarkən öz-özlüyündə qabaqcadan bu suallar ətrafında düşünməlidir: *"Nəyi deyəcəyəm?", "Niyə deyəcəyəm?", "Kimə deyəcəyəm?", "Necə deyəcəyəm?"* şifahi şəkildə danışmağa başlamazdan əvvəl həmin sualları əsas götürənlər həmişə rəğbətlə qarşılanır, dinləyicilərin qəlbində özlərinə layiq yer tuturlar.

Söhbət zamanı yaxşı məlum olan bir məsələ haqqında danışmaq daha məqsədəmüvafiqdir. Bu zaman sadə, səlis sözlər və cümlələrlə müəyyən bir fikri daha aydın şəkildə ifadə etmək nitq mədəniyyətinin mühüm əlamətlərindən sayılır.

Davranış estetikasından bəhs edərkən **asudə vaxt** və ondan səmərəli istifadə etmək mədəniyyəti üzərində də dayanmaq lazımdır. Çünki asudə vaxt öz mahiyyəti etibarilə çox böyük sərvətdir. Onun qədrini bilmək, hər anından səmərəli istifadə etmək şəxsiyyətin mənəvi-intellektual səviyyəsinin yüksəlməsinə səbəb olur. Hər bir insan işindən, məşğuliyyətindən asılı olaraq asudə vaxt büdcəsi əldə edir. İşə, təlim əməyinə sərf olunan vaxtdan sonra insanın öz ixtiyarında qalan vaxt asudə vaxta aiddir. Asudə vaxtın çox hissəsini fəal istirahət üçün ayırmaq məsləhətdir. Açıq havada gəzmək, müxtəlif hərəkətli və əyləncəli oyunlarla məşğul olmaq, müəyyən qədər televizora, teatr tamaşalarına və filmlərə baxmaq da yaddan çıxarılmamalıdır. Bunlar asudə vaxtın daha maraqlı və məzmunlu keçməsinə zəmin yaradır. Asudə vaxtda mütaliə etmək, elm, incəsənət sahələri üzrə yeni məlumatlar əldə etmək, sevimli yazıçı və şairlərin əsərləri ilə tanış olmaq, ailə kitabxanasını zənginləşdirmək də faydalıdır.

Asudə vaxtın müəyyən bir hissəsini bədən tərbiyəsi və idmana, ictimai faydalı işə, həmçinin təbiətə qayğı göstərməyə həsr etmək vacibdir. Həyət və yol kənarındakı, məktəbin həyətindəki ağaclara və yaşıllıq kollarına qulluq etmək savab işidir və bu iş rəğbətlə qarşılanır.

Asudə vaxtlarda məktəbdənkənar tərbiyə və mədəni-maarif ocaqlarında fəaliyyət göstərən bədii-texniki dərnəklərdə məşğul olmaq da əhəmiyyətlidir. **Davranış və məişət estetikası bir-biri ilə sıx bağlıdır.** Ona görə də çox zaman davranış mədəniyyətindən danışarkən fikrin səmti məişət mədəniyyətinə istiqamətlənir. Bunun üçün də müxtəlif qəbildən olan insanların həyat tərzini yaxşılaşdıran məişət avadanlığının, məişət əşyalarının əldə edilməsinə xüsusi fikir vermək zəruridir.

*"İnsan əşyalar üçün, əşyalar insan üçün?"* sualı həyat və məişət prosesində tez-tez təkrarlanır. Cavablar çox qısa olur. Yaşından, təhsil, peşə səviyyəsindən asılı olaraq insanın evdə, ailədə, ümumi yataqxanada keçirdiyi həyat tərzi **texniki estetikanın** son nailiyyətlərini göstərən cihazlar və avadanlıqlarla müşayiət olunmalıdır. Xüsusi cihazlarla idarə olunan müasir televizorlar, kompüter texnikası, sərinləşdirici və istiləşdirici qurğular, proqramla işləyən paltar və qab-qacaq yuyan maşınlar əsil möcüzə deyilmi? Hazırda məişətimizə geniş daxil olan elmi-texniki tərəqqinin parlaq nailiyyətləri kimi nəzərə çarpan həmin vasitələr insanların həyat tərzinin estetik tərəflərini göstərir. İnsan yaratdığından hədsiz zövq alır. Mənalı yaşamaq-yaratmaq idealına sadiq qalır, cəmiyyətin fəal və aparıcı qüvvəsinə çevrilir.